# Mahnıların ifasında Azərbaycan dilinin saflığının qorunmasına həsr olunmuş tədbir keçirilmişdir





Dünən Azərbaycan Milli Konservatoriyasında "Azadlıq Hərəkatçıları" İctimai Birliyi, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu və Azərbaycan Milli Konservatoriyası ilə birgə Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Xalq və bəstəkar" mahnılarında Azərbaycan dilinin saflığının qorunması" layihəsinin yekunlarına həsr edilmiş konfrans keçirmişdir.

Tanınmış müğənnilərin, dilçi-alimlərin və bəstəkarların iştirakilə keçirilən tədbiri giriş sözü ilə konservatoriyanın prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lalə Hüseynova açdı. Layihə çərçivəsində "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin SƏS TV onlayn televiziyası ilə birgə hazırladığı "Mahnılarımızın dili" sənədli filmi nümayiş etdirildikdən sonra məruzə ilə çıxış edən "Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri, yazıçı-publisist, layihənin rəhbəri Təhmasib Novruzov araşdırmaların yekunları, ortaya çıxan qüsurlar və onların dilimizin saflığına xələl gətirməsi, eləcə də, həmin qüsurların aradan qaldırılması ilə bağlı təkliflərlə bağlı ətraflı məlumat verdi. T.Novruzov bildirdi ki, layihənin icrası zamanı 2000-dən çox mahnı ifası dinlənilmiş, 220 dil qüsuru aşkar edilmişdir. Qeyd olundu ki, Respulikanın Xalq Artistləri Mənsum İbrahimov, Mübariz Tağıyev, Gülyanaq Məmmədova, Mələkxanım Əyyubova və əməkdar artist Təyyar Bayramov istisna olmaqla, ifası dinlənilən bütün müğənnilərdə dil qüsuru aşkar edilmişdir.

Layihənin eksperti, AMEA Nəsimi adına Dilçilik İnstitutu Monitorinq şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sevinc Əliyeva, millət vəkili Hikmət Babaoğlu, Respublikanın Xalq Artisti Eldost Bayram, Əməkdar Artist Təyyar Bayramov, jurnalist Hikmət Əliyev və başqaları çıxış edərək, tədbirin əhəmiyyətindən, xüsusilə, gənc ifaçıların formalaşmasında belə tədbirlərin rolundan danışdılar.

Sonda araşdırma zamanı ifalarında dil qüsuru aşkar olunmayan Respublikanın xalq artistləri Mübariz Tağıyev, Mənsum İbrahimov, Gülyanaq Məmmədova, Mələkxanım Əyyubova və Əməkdar Artist Təyyar Bayramov "Azadlıq Hərəkatçıları" İctimai Birliyi və AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun birgə "Təşəkkürnamə"ləri ilə təltif edildilər.

Tədbirə Milli Konservatoriyanın prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Malik Quliyev yekun vuraraq, belə vacib və maraqlı tədbirin Milli Konservatoriyada keçirilməsinə görə layihənin əməkdaşlarına minnətdarlığını bildirdi.

RƏFİQƏ